*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 6 fevral 2016-cı il | № 10 (2025) | Qiyməti 25 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya rəsmi səfəri

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin baş katibi Pan Gi Munun, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun, Almaniya Federativ Respublikasının Kansleri Angela Merkelin, Norveç Krallığının Baş naziri Erna Solberqin və Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın dəvəti ilə Londonda keçirilən "Suriyaya və regiona dəstək" konfransında iştirak etmək üçün fevralın 3-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfərə gedib.***

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Londonda "Suriyaya və regiona dəstək" konfransı çərçivəsində Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq bildirildi. İqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsində, enerji, nəqliyyat və infrastruktur layihələrinin həyata keçirilməsində qarşılıqlı maraq ifadə olundu.

Azərbaycan Prezidenti İlham Əliyev böyük İpək Yolu və "Cənub" qaz dəhlizi layihələrinin həyata keçirilməsi istiqamətində görülən işlərdən danışdı.

Söhbət zamanı birgə layihələrin reallaşdırılması ilə bağlı qarşılıqlı razılığın əldə edilməsinə dair fikir mübadiləsi aparıldı.

* * *




Fevralın 4-də Londonda "Suriyaya və regiona dəstək" konfransı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin baş katibi Pan Gi Munun, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun, Almaniya Federativ Respublikasının Kansleri Angela Merkelin, Norveç Krallığının Baş naziri Erna Solberqin və Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın dəvəti ilə konfransda iştirak edib.

Böyük Britaniya, Almaniya, Küveyt, Norveç və Birləşmiş Millətlər Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən konfransda Suriyaya təcili və uzunmüddətli yardımın təmin edilməsi, regionda humanitar və təhsil layihələrinin reallaşdırılması, böhrandan əziyyət çəkən qaçqınların sosial problemlərinin həll olunması, onları qəbul edən ölkələrə dəstək göstərilməsi məsələləri müzakirə edilib.

Dövlətimizin başçısı konfrans çərçivəsində keçirilən "Təhsil" mövzusunda sessiyada çıxış edib.

- Zati-aliləri, xanımlar və cənablar.

Biz Suriya qaçqınlarının halına çox acıyırıq. Müstəqillik illərində - 1990-cı illərin əvvəlində qonşu Ermənistan Azərbaycana qarşı təcavüz edəndə Azərbaycan özü humanitar fəlakət və böhrandan əziyyət çəkib. Bu təcavüz nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olundu. Biz etnik təmizləməyə məruz qaldıq. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.

Bu, həqiqətən də humanitar fəlakət idi. O zaman ölkəmiz çox gənc və kasıb idi. Həmin vaxt adambaşına düşən qaçqın sayına görə ən yüksək göstərici olan səkkiz milyon əhalidən bir milyonu evsiz və işsiz qalaraq, yaşayış imkanlarından məhrum olmuşdu. Biz beynəlxalq humanitar təşkilatlara, xüsusilə tariximizin çətin məqamında bizə dəstək olan BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına minnətdarıq.

Bu gün Azərbaycan özü donor ölkədir. Biz, Suriya qaçqınları da daxil olmaqla, maliyyə yardımını təmin edirik. 1994-cü ildə Azərbaycan ilə Ermənistan arasında atəşkəs rejimi müəyyən edilmişdir. Əfsuslar ki, o vaxtdan bəri danışıqlar masası ətrafında bu münaqişənin həlli ilə bağlı ciddi irəliləyişə nail olunmamışdır. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, 20 ildən artıqdır ki, Ermənistan tərəfindən bu qətnamələrə məhəl qoyulmur.

Lakin 1994-cü ildə atəşkəs razılığının əldə olunması bizə inkişaf etmək imkanını verdi. O vaxtdan bəri Azərbaycanın inkişafı çox sürətli olub. Biz demək olar ki, 250 min qaçqını lazımi ev şəraiti ilə təmin edə bildik. Bizdə qaçqınlar da daxil olmaqla 100 faiz savadlılıq səviyyəsi var. On il bundan əvvəl qaçqınların təxminən 70 faizi yoxsulluq şəraitində yaşayırdı. İndi isə qaçqınlar arasında yoxsulluq səviyyəsi yalnız 12 faiz təşkil edir. Ümumilikdə işsizlik və yoxsulluq 5 faizdir. Mən bu göstəriciləri nəyə görə sizin diqqətinizə çatdırıram?! Çünki ölkə yalnız sabitlik və sülh şəraitində inkişaf edə və böyük çətinliklərin öhdəsindən gələ bilər.

Bu gün biz bir çox çıxışları və yardım çağırışlarını dinlədik. Azərbaycan Suriyada humanitar inkişafa artıq töhfə vermiş və verəcək ölkələr arasındadır. Lakin ən əsası sülh, atəşkəs, siyasi həllin tapılmasıdır. Yalnız bundan sonra iş yerləri açılacaq, təhsil istənilən səviyyədə olacaq və insanlar öz gələcəyinə inanmağa başlayacaqlar. Biz bu böyük iqtisadi və sosial çətinliklərdən əziyyət çəkmiş bir ölkə kimi buna necə nail olmağın yolunu bilirik. Biz iş yerlərinin yaradılmasında təcrübəmizi paylaşa bilərik. Son on illikdə Azərbaycanda 1,5 milyon iş yeri yaradılmışdır. Biz təhsil sahəsindəki təcrübəmizi də paylaşa bilərik. Ölkəmizdə 3 mindən çox məktəb inşa edilmişdir və dediyim kimi, Azərbaycanda 100 faizlik savadlılıq səviyyəsinə nail olunmuşdur. Humanitar böhranın idarə olunması üzrə təcrübəmizi də paylaşa bilərik və biz bunu edəcəyik.

Lakin ən önəmlisi sülhdür. Buna görə də Suriya böhranı üzrə siyasi həllin mümkün qədər tez tapılması bizim gündəliyimizdə duran bir nömrəli məsələdir. Əminəm ki, bu gün apardığımız müzakirələr həmin siyasi həllin tapılmasında öz vacib rolunu oynayacaqdır. Bu gün Azərbaycan əsaslı maliyyə və iqtisadi potensialı olan bir ölkə kimi buna sülh deyil, yalnız atəşkəs şəraitində nail ola bilmişdir.

Əlbəttə ki, biz Suriyadakı bacı və qardaşlarımıza dəstək olmaqda davam edəcəyik. Biz Suriya qaçqınlarını qəbul etmək üçün üzərinə belə böyük bir yükü götürən ölkələrə minnətdarıq. Bir daha qeyd etmək istəyirəm, biz buraya sülhü və bu cür dəyərləri təşviq etmək üçün gəlmişik. Bu baxımdan Azərbaycan öz vacib rolunu oynamağa davam edəcəkdir. Çox sağ olun.

**AZƏRTAC-ın materialları əsasında**

# Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri Yaxın Şərq mediasının diqqət mərkəzindədir

***Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri Yaxın Şərq regionunda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin diqqət mərkəzindədir. Ərəbdilli əksər media orqanları, həmçinin Yaxın Şərq üzrə çalışan nüfuzlu Qərb telekanalları Azərbaycan Prezidentinin səfərini yaxından izləyiblər.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin səfərinin təfərrüatlarını əks etdirən yazılar mərkəzi qərargahı Əmirliklərdə yerləşən və ərəb dünyasının yüksək tirajlı mətbu orqanları sayılan "Emirates News", "Dubainform", "The National", "Al Khalij", "Gulf News" kimi qəzetlərdə və VAM dövlət xəbər agentliyində dərc edilib.

Yazılarda Azərbaycan ilə çoxtərəfli münasibətlərin gələcək inkişafının körfəz bölgəsi üçün xüsusi əhəmiyyət daşıdığı qeyd olunub. Eyni zamanda, Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğalı ictimaiyyətin diqqətinə çatdırılıb.

Yerli media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin Abu Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın hakimi Şeyx Məhəmməd bin Raşid Əl Məktum ilə görüşlərində müzakirə olunan məsələlər, o cümlədən siyasi-iqtisadi, enerji sahələrində əməkdaşlıq, qarşılıqlı sərmayə qoyuluşu və turizm sektorunda tərəfdaşlığın perspektivlərinə diqqət çəkiblər. Xəbər agentliklərinin informasiyalarında isə paytaxt Abu Dabidə və Dubay Əmirliyində yerli hökumət rəsmiləri ilə görüşlərdən, eyni zamanda Prezident İlham Əliyevin Şeyz Zayed məscid kompleksini ziyarətindən və məşhur "Bürc-Xəlifə" binası ilə tanışlığından önəmli məqamlara və fotoşəkillərə yer ayırıblar.

Gələn il IV İslam Həmrəylik Oyunlarına ev sahibliyi edəcək Azərbaycan müsəlman ölkələrinin diqqət mərkəzindədir. Azərbaycan İslam coğrafiyası üçün Avropa, Orta Asiya, Yaxın Şərq arasında strateji körpü və dinamik inkişaf edən tərəfdaş rolunu oynayır. Bu baxımdan Azərbaycan Prezidentinin regiona səfəri çoxtərəfli əlaqələrimizin gələcək inkişafının başlıca təminatı olacaq.

# Xocalı soyqırımının 24-cü ildönümünün keçirilməsinə dair tədbirlər planı təsdiq edilib

***Azərbaycan Respublikasının Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə "Xocalı soyqırımının 24-cü ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib.***

AZƏRTAC xəbər verir ki, tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərində, nümayəndəliklərində və diaspor təşkilatlarında bu soyqırımı ilə bağlı tədbirlərin (mətbuat konfranslarının, anım mərasimlərinin və s.) təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında, internet şəbəkəsində qanlı qırğını əks etdirən materialların yayılması və mütəmadi olaraq yenilənməsi nəzərdə tutulub.

Sənədə əsasən, ölkədə fəaliyyət göstərən dini konfessiya və qurumlar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım mərasimləri təşkil ediləcək, idarə və təşkilatlarda, teatr-konsert müəssisələrində, sərgi salonlarında, ali və orta məktəblərdə xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, milli azadlıq uğrunda mübarizəyə həsr olunan sənədli və bədii filmlər nümayiş etdiriləcək.

Xocalıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, Milli Məclisin deputatlarının və ziyalıların şəhid ailələri ilə görüşləri təşkil ediləcək.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər bu faciəyə həsr olunacaq, həmin gün saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın Dövlət bayraqları endiriləcək.

# Nikos Kotzias: Yunanıstan Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlıdır

***Fevralın 2-də Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan yunanıstanlı həmkarı Nikos Kotzias ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, görüşdən sonra nazirlər mətbuat konfransı keçiriblər.

Elmar Məmmədyarov Azərbaycan ilə Yunanıstan arasında kifayət qədər səmərəli əməkdaşlığın mövcud olduğunu söyləyib. Nazir yunanıstanlı həmkarı ilə görüşdə ikitərəfli və regional əməkdaşlığın inkişafı məsələlərinin müzakirə olunduğunu diqqətə çatdırıb. Bildirib ki, danışıqlar zamanı Avropa İttifaqı çərçivəsində əlaqələr, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi, enerji sahəsində əməkdaşlıq, həmçinin Avropada cərəyan edən proseslər diqqət mərkəzində olub.

Azərbaycan ilə Yunanıstan arasında əlaqələrin genişləndiyini bildirən xarici siyasət idarəsinin rəhbəri beynəlxalq təşkilatlarda da əməkdaşlığın inkişaf etdirilməsi barədə razılıq əldə olunduğunu vurğulayıb.

Azərbaycana səfərindən məmnunluğunu bildirən nazir Nikos Kotzias keçirilən görüşlərin məhsuldar olacağına inandığını söyləyib. Ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi perspektivlərinə dair səmərəli müzakirələrin aparıldığını deyən nazir Yunanıstanın Azərbaycan qazını almağı planlaşdırdığını və artıq infrastrukturla bağlı məsələlərin həll edildiyini diqqətə çatdırıb. N.Kotzias vurğulayıb ki, Yunanıstan TAP layihəsindən istifadəni və Azərbaycan qazının Avropaya nəqlini özü üçün vacib hesab edir. O qeyd edib ki, TAP-ın reallaşdırılması Azərbaycan qazının Avropaya çatdırılmasında mühüm addımlardan biridir.

Nazir ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsinin önəmli olduğunu diqqətə çatdırıb. O, Yunanıstanın Azərbaycanın tarixi tərəfdaşı olduğunu vurğulayıb. "Biz Avropa İttifaqı və Azərbaycan arasında əlaqələrin inkişafında maraqlıyıq", - deyə N.Kotzias əlavə edib.

Yunanıstanlı nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində ölkəsinin Azərbaycanın mövqeyini dəstəklədiyini bildirib.

*Ön xətdən reportaj*

# Qüdrətdən qalalı dağların keşikçiləri

***Uşaqlıq dostum mənə bir nəfəri təqdim edib "Müharibə illərində əsgərim olub", - dedi. Əslində onun da yaşı çox olmazdı, axı o vaxtlar əsgərlər arasında könüllü döyüşçülərə rast gələrdin ki, komandirindən yaşca böyük idi. Öyrəndim ki, Cümşüd Füzuli rayonundandır, doğma rayonları erməni faşistlərinin hərbi təcavüzünə məruz qalanda könüllü silaha sarılıb.***



Söhbətimizdə tez-tez dostum Əliyusifdən, onun qayğıkeşliyindən, mərdliyindən ağızdolusu danışırdı. Deyirdi ki, müharibə dövründən, qanlı-qadalı döyüş çağlarından illər ötməsinə baxmayaraq, sevimli komandirini unutmur, hər bayramda zəng edib təbriklərini çatdırır. "Ötən il Novruz bayramında komandirimin bizə gəlişi ailəmiz üçün əsl toy-bayrama döndü", - deyirdi.

Mən isə arada komandirini ona sevdirən xüsusiyyətlərindən danışmasını istəyirəm. "Komandirim bizdən ötrü çətin günümüzün əsl dostu, sirdaşı idi, heç vaxt kiminsə probleminə etinasız yanaşmazdı, döyüşçüsünə əlindən gələni əsirgəməzdi", - deyən müsahibimin sözlərindəki səmimiyyəti duymaq çətin deyil. Həmişə bir həqiqətə toxunuram ki, doğma Vətənimizin ordusunda xidmət edən komandir tabeliyindəki əsgərə dost və sirdaş olmalıdır...

Cəbhə bölgəsinin özünəxas çətinlikləri bu yerlərin keşikçiləri olan əsgərləri, sözün həqiqi mənasında, sınağa çəkir, hər kəsin mənəviyyatca nəyə qadir olduğunu sübuta yetirir. Bu dəfə ezamiyyətdə olduğum dağlıq bölgənin məğrur keşikçiləri ilə görüşlərim də yaddaşımda hələ uzun müddət xatırlanacaq hadisəyə dönür. Azərbaycan Ordusunun təcrübəli zabitlərindən olan Sahib Şahverdiyevlə görüşəndə yorğun olduğunu hiss edirəm. "Bütün gecəni səngərdə keçirmişəm, düşmən yenə iriçaplı silahlardan mövqelərimizə atırdı. Amma cavab atəşimizlə erməniləri yerindəcə susdurduq", - deyir komandir.

Ağır müharibə dövründən fərqli olaraq indi yerli camaat əmin-arxayın təsərrüfat işləri ilə məşğuldur. Torpaq sahibi olan əli qabarlı kəndli illik azuqəsini toplamaq üçün gecəsini gündüzünə qatır. Ona bu şəraiti yaradan isə torpaqlarımızın keşiyini çəkən Azərbaycan əsgəridir.

Səngərdə ilk görüşdüyüm hərbçi manqa komandiri kiçik çavuş Asim Abdullayevdir. Elə bu rayonda doğulub boya-başa çatan gənci yenidən ordu həyatına bağlayan əsas səbəb isə Vətənə olan sevgisi və düşmənə sonsuz nifrətidir. Asim deyir ki, yaşadığı bölgə ermənilər tərəfindən hərbi təcavüzlə üzləşəndə, silaha sarılan yerli cavanlar arasında onun da yaxınları, doğmaları olub. Bir vaxt özü də başqa bir bölgədə əsgər olmuş tovuzlu döyüşçü bu dağların hər cığırına yaxşı bələddir.

### "Döyüşçünün əsas silahı Vətən sevgisidir"

- Hərbi xidmətə gələn gənclərimizin hamısında Vətənə, torpaqlarımıza bağlılıq, eyni zamanda düşmənlərə nifrət hissi güclüdür, - deyən manqa komandirinə görə, şərəfli döyüş yolu keçmiş hərbi hissədə xidmət etmək əsgərləri daha da ruhlandırır və onların döyüş əzmini artırır. - Təlim müddətində gənc əsgərlərə hərbi hissəmizin keçmişi, bu günü haqqında geniş məlumat verilir və düşmənə qarşı mübarizədə hazırlıqlı döyüşçü olmağın sirləri aşılanır. Qərargahın qarşısında ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman döyüşçülərin xatirə kompleksi yerləşir. Gənc əsgər buradan keçəndə bir anlığa ayaq saxlayıb qəhrəmanların xatirəsinə ehtiramını ifadə edir və onların qısa, lakin mənalı ömür yolundan nümunə götürür.



Belə ruhda yetişən gənc döyüşçülər artıq ön xətdəki bölmələrə hazırlıqlı gəlirlər. Ümumiyyətlə, döyüşçünün əsas silahı düşmənə nifrəti və Vətənə olan sevgisidir. İndi özünüz də döyüş postlarını gəzib bir-birindən mətin, iradəli, vətənpərvər döyüşçülərimizlə tanış olacaqsınız.

### "Bir il əvvəl qardaşım da bu postda xidmət edib"

Əsgər Kamran Qurbanov 6 ay əvvəl Cəlilabad rayonundan hərbi xidmətə çağırılıb. Manqa komandirinin sözlərinə görə, bir döyüşçü kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlir. Qısa vaxtda özünü bacarıqlı və intizamlı əsgər kimi tanıdan gəncə bir il əvvəl bu manqada xidmətini başa vurmuş qardaşı Kənanın yolunu davam etdirmək nəsib olub.

- Son dərəcə qürurluyam ki, bir vaxt qardaşımın xidmət etdiyi eyni bir manqanın əsgəriyəm, - deyə cəlilabadlı döyüşçü bildirir. - Həmişə valideynlərimlə qardaşımın görüşünə gələrdim, Vətənimizin səfalı bir guşəsində xidmət etməsinə görə ona həsəd aparardım. Amma tale elə gətirdi ki, indi mən özüm də bu yerlərdə əsgəri xidmətimi keçirəm.

- Kamran, özünü Vətənin müdafiəsinə hazır hesab edirsənmi?

- Əlbəttə. Əvvəlcə onu deyim ki, hərbi hissəmizin şərəfli döyüş tarixindən xəbər tutanda qürurlanırsan ki, belə bir hissədə xidmət edirsən. İkinci bir tərəfdən isə, komandirlərimiz də vətənpərvər, qayğıkeşdirlər. Hər addımda onların köməyini, qayğısını hiss edirik. Çox bacarıqlı komandirlərimiz var. Çavuş Elnur Musayevi, kiçik çavuş Asim Abdullayevi deyirəm, onların vətənpərvərliyi bizə örnəkdir. Bəzən deyirlər ki, hərbin sərt qanunları, çətinlikləri var, amma adamda mübarizlik və cəsurluq keyfiyyətləri olduğu halda, bu çətinliklər nəzərə çarpmır. Həm də qarşında dayanan vəzifənin müqəddəsliyini dərindən hiss edəndə, özündə məğrurluq, mətinlik duyursan ki, məhz belə bir vəzifə sənə də tapşırılıb.

Növbəti döyüş postunda əsgər Azər Orucovla tanış olmaq imkanı qazanıram. Kamran kimi, o da 6 ayın döyüşçüsüdür. Baxışlarında Azərbaycan əsgərinə xas olan qürur hiss edirəm.

### Dost seçəndə dar günün dostunu seçəsən...

Bəzən mənə elə gəlir ki, əsgərlərin hamısı eyni geyimdə olduqları kimi, yəqin fikirləri, düşüncələri də eynidir. Əslində məqsəd bir olduğu üçün onları bir arzu, istək birləşdirir: Vətənə layiqincə xidmət etmək, dövlətə və xalqa sədaqətli olmaq. Şübhəsiz, sırada dayanan əsgərə ötəri baxmaq lazım deyil, bəlkə də bu günün əsgəri sabah cəmiyyətimizin sayılıb-seçilən şəxsiyyətlərindən biri olacaq.

Azər Orucovla söhbətimdə də bu əsgərin mənəviyyatını, özəlliklərini öyrənmək həvəsim yaranır. Deyir ki, ordu mühiti gəncliyə gərək olan zəruri xüsusiyyətləri aşılayır. Məsələn, dar günün dostluğunu məhz bu mühitdə kəşf edə bilirsən.

- Əvvəllər rayonumuzda, kənddə-kəsəkdə bir-birinə sadiq olan dostlarla qarşılaşardım və deyərdilər ki, əsgərlik dostuyuq, - söyləyir Azər. - Amma özüm də hərbi xidmətdə olduğum qısa müddətdə Azərbaycanın müxtəlif bölgələrindən olan bir neçə əsgərlə dostluğum yaranıb. Bir-birimizə söz vermişik ki, çətin günlərimizdə yaranan bu dostluğun qədir-qiymətini itirməyək. Məsələn, Füzuli rayonundan olan Novruz Kazımovla, bərdəli əsgər Vüsal Səmədli ilə dost olmuşam. Vüsal bu günlər tərxis olunacaq. Deyir ki, bu yerlərdə keçən günlərimizi heç vaxt unutmayacaq.

Azərin, sadə bir əsgərimizin fikirləri, düşüncələri ilə tam şərikəm. Əsgərlik illərimdən artıq bir qərinə ötür, amma uzaq Şimalda tanıdığım əsgər dostlarımı heç vaxt yaddan çıxarmıram. Bu dostluq, Azərin dediyi kimi, çətin günlərimizin dostluğu olduğu üçün uzunömürlüdür.

### "Silahdaşlarımla çiyin-çiyinə ordumuzun zəfər yürüşünə hazıram"

Bayaq müşahidə postunda söhbətləşdiyim əsgərin haqqında danışdığı təcrübəli döyüşçü Vüsal Səmədli ilə görüşürəm. Yazı qəzetimizdə dərc olunanda Vüsal bəlkə də hərbi xidmətdə olmayacaq, çünki ordudan tərxis olunacağına az qalıb. Elə buna görə də Vüsalla söhbətimdə onun əsgərlik dövrü ilə bağlı xatirələrini qələmə almağa çalışıram.

- Sevimli döyüşçü silahdaşlarından ayrılmaq sənə çətin gəlmir ki?

- Bizdən əvvəl də neçə nəsil əsgər yola salınıb, amma hər birinin yaddaşlarda öz yeri var, - deyir Vüsal Səmədli. - Hərbi xidmət mərhələsi Vətənimizi layiqincə qorumağa qadir olan bir döyüşçü kimi yetişməyimizdə mühüm rol oynayır. Çoxları kimi, mən də sevinirəm ki, əsgərlik dövrümün imkanlarından yararlanaraq hazırlıqlı döyüşçü kimi yetişə bilmişəm. Neçə vaxt bir yerdə xidmət etdiyim əsgər dostlarımdan ayrılmaq adama çətin gəlir. Amma harada olsam da, əsgərlik xatirələrimi unudan deyiləm. Nə vaxt döyüşlər başlayarsa, yenə silahdaşlarımla bir sırada olacağam.

Beləcə, düşmən qarşısında göz qırpmadan torpaqlarımızı qoruyan gənclərimizin daha bir qrupu ilə tanışlığım başa çatır. Hər birinin cəsarəti, əsl döyüşçüyə xas olan xüsusiyyətləri əminliklə deməyə əsas verir ki, düşmənə göz dağı olan oğulların sayı durmadan artır. Bu isə Azərbaycanın qarşıdakı böyük Qələbəsinə tam zəmanətdir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# "Azərbaycanın sərəncamında olan hərbi texnika Ermənistandakından qat-qat üstündür"

***Ehtiyatda olan general-leytenant, keçmiş birlik komandiri Yaşar Aydəmirov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı dinc azərbaycanlı əhaliyə qarşı döyüşlərdə qaniçənliyi, amansızlığı ilə "şöhrət" tapmış "Komandos" ləqəbli Ter-Tadevosyanın bu günlərdə erməni jurnalistləri qarşısında çıxışında səsləndirdiyi fikirlərə münasibət bildirib.***

Yaşar Aydəmirov AZƏRTAC-ın sorğusuna cavab olaraq deyib ki, hərbi məsələlərdən başı çıxmayan, yazı-pozu ilə məşğul olan jurnalist qardaşlarına bu "qəhrəman" "Azərbaycanın birtərəfli qaydada məhv ediləcəyi" barədə pafoslu, hədə-qorxu dolu fikirlərini çatdırıb. Onun sözlərinə görə, Ermənistanın və "Dağlıq Qarabağ" ermənilərinin sərəncamında guya "sınaqdan çıxmış texnika" və "3-4 neft-qaz platformasına tuşlanmış hansısa mifik raketlər mövcuddur".

Gülüş doğuran və təəccübləndirən hal isə odur ki, bəyan etdiyi bu sayıqlamaları o, BMT Nizamnaməsinin 51-ci maddəsindəki "ölkəyə hücum olduğu təqdirdə özünümüdafiə hüququ" ilə pərdələməyə cəhd göstərir. Qeyd edək ki, yalnız təhdid olduğu halda deyil, birbaşa işğala məruz qaldığı halda da bu hüquqdan istifadə etməyə əsas var. Amma bu üzdəniraq, qəddarlığı ilə öyünən "keçmiş döyüşçü" dediklərindən eyforiyaya qapılaraq bütün məsələləri baş-ayaq çevirir. Hətta öz yalanlarına, uydurmalarına Ermənistan prezidentinin və müdafiə nazirinin guya bu haqda Azərbaycanı nə vaxtsa "xəbərdar" etmələri barədə mülahizələrini də əlavə edir.

Yaşar Aydəmirov bildirib: "Cənab Ter-Tadevosyan, nəyisə qarışdırmırsınız ki?! Çünki məhz siz təcavüzkar siyasət yeridib Azərbaycan torpaqlarını işğal etmisiniz, dinc əhalini qanına qəltan edərək bir milyondan artıq insanın doğma yurd-yuvasından didərgin düşməsinə səbəbkarsınız".

Mən ağlını itirmiş erməni "sərkərdəsi" və sizə bənzər digər "strateqlər"lə heç bir polemikaya qoşulmadan sadəcə olaraq soruşmaq istəyirəm: "Xankəndidən ən yaxın platformayadək 300 kilometrdən artıq məsafə olduğu halda siz neft-qaz platformalarını necə və nə ilə məhv etməyə hazırlaşırsınız?! Siz heç olmasa, istifadənizdə olan raket sistemlərinin məsafə üzrə zərbə endirmə imkanlarını öyrənin və sonra danışın! Bu imkanlar R-300 kompleksində - maksimum 300 kilometr, sahə üzrə isə 100x100 metrdir. Sizin diqqətlə yoxladığınız texnikanın sırasında hədəfləri dəqiq məhv etmək imkanlarına malik olan bir dənə də olsun nümunə yoxdur!

Məgər Gürcüstandan keçən neft boru kəmərinin partladılması nəticəsində infrastruktura ciddi ziyan dəyə bilər?! Əgər fərz etsək ki, sizin "igid pəhləvan-diversantlar və yaxud yoxladığınız texnika" beton hasarla mühafizə olunan boru kəmərini sıradan çıxarmağa nail olsa belə, birincisi, neftin nəqlini dayandıran avtomatik sistem işə düşür. İkincisi isə, bu cür qəzaların, nasazlıqların nəticələri xüsusi qüvvələr və vasitələrlə dərhal aradan qaldırılır.

Nəhayət, nəzərə almaq lazımdır ki, Azərbaycanın sərəncamında olan, sınaqdan çıxmış zərbə və məhvetmə vasitələri Ermənistandakından qat-qat üstündür. Onları yerinə oturtmaq, düşmənə sarsıdıcı zərbələr endirmək və sağalmaz yara vurmaq üçün həmin texnika hədəfə tuşlanaraq hazır vəziyyətdədir. Bu zərbələrdən hətta sizin sevimli paytaxtınız - "ən gözəl" İrəvan şəhəri də yayına bilməz.

Əgər biz Dağlıq Qarabağ probleminə hələ də səbir, təmkinlə yanaşırıqsa, şübhəsiz ki, bu, öz qərarlarında beynəlxalq hüququn normalarına və prinsiplərinə, BMT-nin münaqişəyə dair qətnamələrinin tələblərinə hörmətlə yanaşan Prezidentimizin alicənablığının, müdrikliyinin və xalqımızın sülhsevərliyinin nəticəsidir".

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Müdafiə Nazirliyi ilə Dövlət Komitəsi arasında illik tədbirlər planı imzalanıb

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2016-cı il üçün birgə tədbirlər planı imzalanıb. Sənədə əsasən keçiriləcək tədbirlərin icra vaxtı, yeri, məsul qurumlar və şəxslər müəyyən edilib.

İl ərzində birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində təşkil ediləcək görüşlərdə Azərbaycançılıq ideyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq və digər mövzularda tədbirlər təşkil olunacaq.

Müxtəlif kateqoriyalardan olan hərbi qulluqçular, tarixçilər, elm xadimləri, ilahiyyatçı alimlərin iştirakı ilə birgə dəyirmi masaların təşkili də nəzərdə tutulub.

### Düşmən dövlət sərhədində növbəti dəfə təxribat törədib

Fevralın 3-də saat 17:50 radələrində Azərbaycan-Ermənistan dövlət sərhədində düşmən təxribatı nəticəsində hərbi qulluqçumuz əsgər Mirzəyev İmran Xudaverdi oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir.

Silahlı Qüvvələrimizin həmin istiqamətdə yerləşən bölmələrinin keçirdiyi əməliyyat tədbirləri nəticəsində təxribat qrupunun 3 nəfər üzvü məhv edilib.

### Qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, fevralın 4-də Azərbaycan Respublikasının Füzuli rayonunun Aşağı Veysəlli kəndi yaxınlığındakı qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Peter Svedberq, Jiri Aberle, Saymon Tiller və yüksək səviyyəli planlaşdırma qrupunun nümayəndəsi polkovnik Tuncay Sevim keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, onun səhra köməkçiləri Yevgeni Şarov, Xristo Xristov və yüksək səviyyəli planlaşdırma qrupunun nümayəndəsi polkovnik-leytenant Aleksandr Nepokrıtıx nəzarət ediblər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***5 fevral 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 110 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Paravakar, Noyemberyan rayonunun Voskepar, Barekamavan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Məzəm, Qaymaqlı kəndlərində və adsız yüksəklilərdə, Berd rayonunun Ayqepar, Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Mərzili, Qaraqaşlı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 112 dəfə atəş zərbəsi endirib.

# Torpağı qoruyaq ki, Vətən olsun

Düşmənlə təmas xəttində ordumuzun birləşmələri mətinliklə keşik çəkir. İşğal altında qalan ərazilərimizi azad etmək üçün hər an Ali Baş Komandanın əmrini gözləyirlər. Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan ordumuzun təminatı günbəgün artır. Ön xətdə xidmət edən döyüşçülərin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində atılan mühüm addımlar öz bəhrəsini verməkdədir. Bu günlərdə Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin ötən ilin yekunlarına həsr olunmuş toplantısında bir daha yəqin olunmuşdu ki, əvvəlki illərlə müqayisədə orduda xəstələrin sayı kəskin şəkildə azalıb. Bu da söz yox ki, əsgərlərin ixtiyarına verilən müasir sosial şəraitin və tibbi təminatın nəticəsidir.

Bu yaxınlarda cəbhə bölgəsindəki "N" hərbi hissəsində zabit İdris Məhərrəmovla görüşdüm. O, bölmələrdə yaradılan şəraitdən bəhs edərək bildirdi ki, əsgərin yüksək döyüş hazırlığı onun sağlamlığından və fiziki hazırlığından da çox asılıdır.

Çoxdan tanıdığım təcrübəli zabit Elmar Zeynalabdinovla ön xətdə yerləşən postlara yola düşdük. Zabit yolboyu ön xətdə görülən işlərdən danışdı. Bildirdi ki, düşmənlə təmas mövqelərimizdə təhlükəsiz şəraitdə xidmət etmək üçün lazım olan bütün şərait yaradılıb. Əsgərlər bir an belə düşməni gözdən qoymurlar. Hər bir əsgərdə Vətənə məhəbbət, düşmənə nifrət hissi var.



Biz dərin səngərlə düşmənlə bir neçə yüz metr məsafədə olan posta gəldik. Burada əsgərlərin döyüş növbətçiliyi üçün yaradılmış şəraitlə tanış olandan sonra müşahidə postuna qalxdıq. Üstü bağlı uzun müddətli atəş mövqeyində müşahidə aparan əsgər Yaşar Musayev növbədə olduğu müddətdə qarşı tərəfdə təhlükəli heç nə görünmədiyini bildirdi. Mazğaldan düşmən mövqeləri yaxın və aydın görünürdü. Müşahidəçi isə xüsusi qurğunun köməyi ilə qarşı tərəfi diqqətdə saxladığını bildirdi.

Öyrənirəm ki, müşahidəçi postda xidmət apararkən lazım olan bütün zəruri avadanlıqlarla təmin olunub. Əsgər onu da bildirdi ki, düşmən daha çox gecələr atəşkəsi pozur, amma qətiyyətli cavab zərbələrimizlə onları susdururuq.

Vətənin keşiyində gecə-gündüz ayıq-sayıq dayanan döyüşçülər son vaxtlar yaradılan şəraitdən razılıq edirlər. Onların bir məqsədi var: erməni tapdağı altında olan torpaqlarımızı tezliklə azad etmək.

Ön mövqedə xidmət edən hər bir əsgər üzərinə düşən xidməti borcunu vicdanla başa vurmaq əzmindədir.

Zabit E.Zeynalabdinov deyir ki, düşmənlə təmas xəttində xidmət edən əsgərlərin döyüş ruhu yüksəkdir. "Tabeliyimizdə olan bu döyüşçülərlə yağıların işğal etdiyi torpaqlarımızı azad etməyə hazırıq".

Bəli, həqiqət də budur. Düşmən heç vaxt öz xoşuna torpaqlarımızdan çıxmayacaq. Bunu Ali Baş Komandanın əmri ilə Azərbaycan əsgəri reallaşdıracaq!

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Silahlı Qüvvələri dinc əhalini, mülki obyektləri və avtomobilləri atəşə tutmayıb

Ermənistan tərəfi Azərbaycan-Ermənistan dövlət sərhədindəki təxribatı örtbasdır etmək və Azərbaycanı günahlandırmaq məqsədilə guya mülki şəxsə məxsus "VAZ-2106" markalı avtomobilin vurulması barədə absurd xəbər yayıb.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, Azərbaycan Silahlı Qüvvələri beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət edərək dinc əhalini, mülki obyektləri və avtomobilləri heç vaxt atəşə tutmayıb. Belə məlumatların heç bir əsası yoxdur və bu, Ermənistan tərəfinin növbəti yalanıdır.

# Gənclər Günü Silahlı Qüvvələrdə silsilə tədbirlərlə qeyd edilib

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrimizin ayrı-ayrı qoşun növlərində, birlik, birləşmə və hissələrində, xüsusi təyinatlı təhsil müəssisələrində 2 Fevral - Gənclər Günü münasibətilə tədbirlər keçirilib.***

***Azərbaycan dövlətini problemlərdən xilas edərək tərəqqi yoluna çıxarmış ümummilli lider Heydər Əliyevin gənclərə göstərdiyi diqqət və qayğı bu tədbirlərin leytmotivi kimi yadda qalıb.***





Gənclər Günündə hərbçilər Ağcabədi rayon Heydər Əliyev Mərkəzini və Gənclər Mərkəzini ziyarət edib, şəhərin görməli yerləri ilə tanış olublar. Ağcabədi rayonu İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, Milli Məclisin deputatları Aqil Abbas və Tahir Rzayev əsgərlərlə görüşüb, onları



bayram münasibəti ilə təbrik edərək çetin və şərəfli xidmətlərində uğurlar arzulayıblar.

Şəhərdə təşkil olunan mədəni-kütləvi tədbirlər əsgərlərimizdə xoş ovqat yaradıb.

Hərbi hissədə davam edən bayram tədbirlərində Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani çıxış edərək şəxsi heyətə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini çatdırıb, döyüş və mənəvi-psixoloji hazırlıqda fərqlənən bir qrup gənc hərbi qulluqçuya hədiyyələr təqdim edib. Bədii özfəaliy-



yət kollektivləri şəxsi heyət qarşısında maraqlı konsert proqramı ilə çıxış ediblər.

* * *

Gənclər Günü Beyləqanda da təntənə ilə qeyd edilib. Azərbaycan Yazıçılar Birliyinin Beyləqan rayon şöbəsinin sədri Asif Cəfərli, "Mübariz" Veteranlar Birliyinin Beyləqan rayon şöbəsinin sədri Rafiq Xuduyev,



Qarabağ müharibəsi əlilləri Ələddin İsmayılov, Elmir Hüseynov, veteranlar Kamil Ağalarov, Məmməd Məmmədov və başqaları çıxış edərək şəxsi heyətə təbriklərini, xoş arzularını çatdırıblar.

Sonda xidmətdə fərqlənən bir qrup əsgərə hədiyyələr təqdim olunub və xatirə şəkli çəkdirilib.

* * *

Göygöl rayonunda yerləşən "N" hərbi hissəsində Gənclər Günü ilə əlaqədar maraqlı tədbir keçirilib. Şəxsi heyət bayram münasibəti ilə hərbi hissənin meydançasında cərgə-cərgə düzülmüşdü.

Bayram tədbirilə bağlı çıxışlar hərbçilər tərəfindən maraqla qarşılandı. Tədbirdə iştirak edən Göygöl rayonu İcra Hakimiyyəti başçısının humanitar və ictimai məsələlər üzrə müavini Kəmalə İbrahimova, Gənclər və İdman İdarəsinin rəisi Zaur Abbasov, təhsil şöbəsinin müdiri Elbrus Atayev gənclərin əsl vətəndaş kimi yetişməsində Silahlı Qüvvələrin əvəzsiz xidmətlərini vurğulayıblar. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elnur Yusifov Vətənə xidmət etmənin ən şərəfli peşə olduğunu deyib.

Dövlətimizin, cəmiyyətimizin gələcəyi hesab edilən gənclərdən asılı olduğunu çıxış edənlər tədbir iştirakçılarının diqqətinə çatdırıblar. Eyni zamanda onlar bildiriblər ki, bu bayram gününün qeyd edilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Böyük öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın gələcəyi hesab edilən gəncliyə və onların inkişaf etməsinə, cəmiyyətdə öz yerini tutmasına həmişə diqqət və qayğı göstərib. Ona görə bu gün Vətənimizin yaratmaq və qurmaq həvəsilə yaşayan oğul və qızları həyatımızın bütün sahələrində doğma Azərbaycanımızın inkişafına öz layiqli töhfələrini verirlər. Ümummilli liderimizin müasir dünya standartlarına uyğun qurduğu ordumuzun sıralarında xidmət edən gənclər isə daha artıq hörmətə layiqdirlər.

Mərasimdən sonra hərbi hissənin şəxsi heyəti Göygöl rayonunda yerləşən Heydər Əliyev Mərkəzinə yürüş edərək ümummilli liderin abidəsini ziyarət ediblər.

Leytenant Anar Kərimov gənc əsgərlər bölüyündə xidmətin nümunəvi təşkilinə görə Göygöl rayon Gənclər və İdman İdarəsinin fəxri fərmanı ilə təltif edilib.

* * *

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabit, müəllim, kursant heyətinin, Nizami rayonu İcra Hakimiyyətinin, Azərbaycan Respublikası Milli Məclisinin və digər ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Dövlət himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Hərbi Liseyin şəxsi heyətlə iş üzrə rəis müavini polkovnik-leytenant Kamran Nəsibov ölkə gənclərinə ulu öndərimiz Heydər Əliyev tərəfindən diqqət və qayğının göstərilməsindən bəhs edib, 1997-ci ildə 2 fevralın Gənclər Günü elan edilməsi haqqında fərman imzalanmasının buna parlaq nümunə olduğunu və bu gün həmin ənənənin dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Daha sonra zabit qeyd edib ki, son illər respublika rəhbərliyinin qayğısı və diqqəti nəticəsində Azərbaycan gəncləri böyük nailiyyətlərə imza atıblar. "Elm, təhsil, idman və mədəniyyət sahələrində gənclərin uğurları ölkəmizdə və onun hüdudlarından kənarda mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir. C.Naxçıvanski adına Hərbi Liseyin kursantları da Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə öyrənən yeniyetmələrdir. Bu gün Azərbaycan gənclərinə göstərilən dövlət qayğısı nəticəsində Silahlı Qüvvələrimizdə vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənclər xidmət edirlər".

Milli Məclisin deputatı Sədaqət Vəliyeva fəxrimiz, gələcəyimiz, arzu və istəklərimizin ən uca zirvəsi hesab etdiyimiz gəncləri bayram günü münasibəti ilə təbrik edib, onlara xoşbəxt gələcək, təhsillərində uğurlar arzulayıb. O, gənclərə müraciətlə vurğulayıb ki, uğurlu gələcəyimiz onların iştirakı ilə qurulacaq. "Ölkəmizin gələcəyi sizsiniz. Gəncliyi olmayan ölkənin gələcəyi olmaz, deyiblər. Unutmamalıyıq ki, Vətəni qoruyan oğullar hər dönəmdə gərəklidirlər. Xalqımızın hər zaman Fəridləri, Mübarizləri olub, olacaq. Onların yarımçıq qalan arzularını sizlər həyata keçirməlisiniz".

Ölkəmizin gələcək həyatının daha da firavan qurulmasında böyüyən nəslin yaxından iştirakına əminliyini bildirən xanım deputat gənc kursantları gələcəkdə işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda mübariz olmağa səsləyib.



Nizami rayonu icra başçısının müavini Gülnaz İsrafilova rayonun icra hakimiyyəti, gənclər və idman idarəsi adından kursantları Gənclər Günü münasibəti ilə təbrik edib, onlara təhsillərində uğurlar və belə tədbirlərin doğma torpaqlarımızın azad olunduğu gündə - Qələbə günündə qeyd edilməsini arzulayıb.

Polkovnik-leytenant K.Nəsibov hərbi lisey rəisinin adından qonaqlara minnətdarlığını bildirib, G.İsrafilovaya və yaradıcı heyətə fəxri fərmanlar təqdim edib.

Tədbir Nizami rayon Uşaq və Gənclər Yaradıcılıq Birliyinin təşkil etdiyi maraqlı konsert proqramı ilə yekunlaşıb.

* * *

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində də Gənclər Günü ilə əlaqədar təntənəli tədbir keçirilib. Tədbirdə bu hərbi mədəniyyət ocağının şəxsi heyəti, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə bölmələrinin zabit və əsgərləri, veteran məşqçi Əhəd Əliyev, ikiqat paralimpiya çempionu, Birinci Avropa Oyunlarının qalibi, Qarabağ müharibəsi əlili İlham Zəkiyev, stend atıcılığı üzrə Olimpiya çempionu Zemfira Meftahətdinova və başqaları iştirak ediblər.

Öncə ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canlarını fəda edənlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni oxunub.

Aparıcılar Ehtiram Əhmədov və Mədinə Məmmədova tədbiri açaraq bildiriblər ki, 2 fevralın Gənclər Günü kimi elan olunması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda gənclər siyasətinin əsası qoyulub. 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılıb. Ulu öndərin prezidentliyi dövründə ölkə gəncləri onun diqqət və qayğısını daim öz üzərlərində hiss etmişlər. 1996-cı il fevralın 2-də məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə gənclərin Birinci Forumu keçirilib. 1997-ci ildən isə Prezidentin sərəncamı ilə 2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başlanıb.



Aparıcılar vurğulayıblar ki, Gənclər Gününün hər də çox böyük simvolik mənası var. Bu gün Azərbaycan xalqının ümidi olan gənclərin dövlətimizin ətrafında vahid ideya uğrunda bir yumruq kimi birləşməsi simvoludur. Hər bir yarışdan, müsabiqədən, döyüşdən üzüağ çıxan Azərbaycan gəncliyi öz qələbələri ilə daim bütün dünyaya bildirir ki, biz varıq və var olacağıq.

Sonra söz müxtəlif ölkələrdə yarışlarda iştirak edib qələbələr qazanan, himnimizi səsləndirib bayrağımızı göylərə qaldıran və Vətənimizi dünyanın müxtəlif ölkələrində tanıdan idmançılarımıza verilib. Veteran məşqçi Əhəd Əliyev qeyd edib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Bu gün Azərbaycan gənclərinin səsi ən ali və mötəbər kürsülərdən gəlir. Sadəcə ölkə daxilində deyil, həm də ölkə xaricində gənclərimiz savadı, dünyagörüşü, bacarıq və istedadı ilə respublikamızın şərəfini qoruyur, Azərbaycan xalqının bütün dünyada tanıdırlar. I Avropa Oyunları zamanı ölkəmizin regionda firavan və qüdrətli dövlət olduğu bir daha bütün dünyaya sübut edildi".

İkiqat paralimpiya çempionu İlham Zəkiyev isə çıxışında təhsilə və elmə yiyələnməyin vacibliyini xüsusi vurğulayaraq bildirib ki, bizim gənclərimizin vəzifəsi təhsil almaq və inkişaf etməkdir. Gənclərimizin qarşısında duran əsas vəzifələrdən birinin də mənəvi tərbiyə məsələsi olduğunu qeyd edib. Gəncləri ümumbəşəri və Azərbaycan xalqının milli-mənəvi dəyərlərini dərindən mənimsəməyə çağıran idmançı vurğulayıb ki, ənənələrimizi, dilimizi, dinimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. "Bu gün Mübariz İbrahimov kimi gənclərin mərdliyi, qorxmazlığı və qəhrəmanlığı tək orduda deyil, həm də bütün Azərbaycan gəncləri arasında hərbi vətənpərvərliyin yüksək olduğuna sübutdur".

Stend atıcılığı üzrə Olimpiya çempionu Zemfira Meftahətdinova da hərbçiləri təbrik edib və qeyd edib ki, Azərbaycan gəncliyində yeni ruh, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi formalaşmağa başlayıb. Müstəqillik dövründə gəncləri bütün sahələrdə



uğurlar qazanır, Vətənimizin adını zirvələrə həkk edirlər.

Tədbir Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının hazırladığı konsert proqramı ilə başa çatıb.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Barak Obama prezidentliyi dövründə ilk dəfə məscidə gedib





ABŞ Prezidenti Barak Obama prezidentliyi dövründə ilk dəfə məscidə gedib.

Dövlət başçısı Merilend ştatının Baltimor şəhərində yerləşən məscidi ziyarəti zamanı buradakı İslam Cəmiyyətində müsəlman amerikalılarla görüşüb.

Quruluşundan bu yana ABŞ-ın bir parçası olan müsəlmanların, hüquq-mühafizə, xüsusi xidmət və orduda vəzifə alaraq bu ölkəni etibarda tutmaq üçün çalışdığına işarə edən Obama, müsəlmanların ölkənin azadlığı uğrunda mübarizə apardığını qeyd edib.

Barak Obama İslamın terrorizmi qadağan edən bir din olduğunu bildirərək "İslam, digərlərinə qarşı hörmət edilməsini istəyən ənənəyə malik bir dindir", - deyə vurğulayıb. Gənc müsəlmanlara müraciət edən Obama deyib: "Sizlər müsəlman və ya amerikalı deyilsiniz, sizlər müsəlman və amerikalısınız".

Obama müsəlman amerikalıların narahatlıqlarını müzakirə etmək və onların fikirləri ilə tanış olmaq məqsədilə "dəyirmi masa"da iştirak edib.

## Yaponiya KXDR tərəfindən raket buraxılışını izləmək üçün "Aegis" sistemli üç gəmi göndərib



Yaponiya Koreya Xalq Demokratik Respublikasının (KXDR) fevralın 8-25 aralığında buraxmağı planlaşdırdığı raketi izləmək üçün "Aegis" çoxfunksiyalı informasiya-idarəetmə sistemli üç gəmi göndərib. Bu barədə ölkənin Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda qeyd edilir ki, gəmilərdən biri Yapon, digər ikisi isə Cənubi Çin dənizində yerləşəcək. Yaponiya üçün təhlükə yaranacağı təqdirdə həmin gəmilərdən SM-3 raketləri buraxılacaq.

Fevralın 3-də Yaponiya Müdafiə Nazirliyi Şərqi Çin dənizində yerləşən İşiqaki və Miyako (Okinava prefekturası) adalarında son model "Patriot PAC-3" raketdən müdafiə komplekslərinin yerləşdirilməsinə başlayıb. Bundan əvvəl isə həmin komplekslərin Müdafiə Nazirliyinin yaxınlığında və Tokionun İçiqaya rayonunda yerləşdirilməsi barədə məlumat verilib.

## Mərakeşdə İŞİD-lə əlaqədə şübhəli bilinən 7 nəfər həbs olunub



Mərakeş xüsusi xidmət orqanları ölkənin cənubunda xüsusi əməliyyat keçirib. Nəticədə 7 vətəndaş İŞİD terror təşkilatı ilə əlaqədə şübhəli bilinərək həbs edilib.

Mərakeş Daxili İşlər Nazirliyinin yaydığı məlumatda deyilir ki, şübhəlilər qanunsuz yollarla Suriya və İraqa gedərək terror təşkilatının sıralarına qoşulmağa hazırlaşırmışlar.

## Qahirə aeroportunda partlayıcı maddə detektorları quraşdırılacaq



Qahirə beynəlxalq aeroportunda partlayıcı maddə detektorları quraşdırılacaq.

Misir KİV-ləri Qahirə aeroportunun idarəetmə şirkətinin Direktorlar Şurasının sədri Məhəmməd Səidə istinadən xəbər verirlər ki, aeroportun təhlükəsizliyini gücləndirmək məqsədilə ümumi dəyəri təqribən 18 milyon avroya bərabər olan iki ədəd ən müasir partlayıcı maddə detektoru alınacaq.

Aeroportda detektorların quraşdırılması şübhəli avtomaşınlarda partlayıcı maddə olub-olmamasını avtomatik şəkildə və ümumi nəqliyyat axınını ləngitmədən yoxlamağa imkan verəcək.

## Polislər pilotsuz uçan aparatları tutmağı qartallara öyrədirlər



Niderlandın hüquq mühafizə orqanları qartallara naməlum pilotsuz uçan aparatları tutmağı öyrətmək istiqamətində test proqramına başlayıb. Polis bu üsuldan yalnız digər vasitələrin insanların həyatına təhlükə törədəcəyi təqdirdə istifadə edəcək.

Qartallar bu işin öhdəsindən bacarıqla gəlir. Onlar pilotsuz uçan aparatı çətinlik çəkmədən izləyə, tuta və təhlükəsiz məsafəyə apara bilirlər.

Xüsusi təlim görmüş quşlar bəlkə də potensial təhlükəli kiçik uçan aparatları sıradan çıxarmaq üçün ən sürətli və effektiv vasitədir. Bu yırtıcılar başqa heyvanı və ya uçan mexaniki qurğunu havada tutaraq saxlamaq üçün güclü pəncəyə və iri caynaqlara malikdir.

Yaponiyada da başqa uçan obyektləri neytrallaşdıra bilən dronlar üzərində iş aparılır. Yerli polis bu məqsədlə altına 3X2 metr ölçüdə tor bərkidilmiş "DJI Spreading Wings 900" modelindən istifadə edir. Bu dronlar havada naməlum uçan aparat gördükdə, onun üzərinə tor atır və qurğunu təhlükəsiz məsafəyə aparır.

## Kanar adalarında Avropada ilk sualtı muzey açılacaq



Britaniyalı heykəltəraş Ceyson Teylor Kanar adalarına daxil olan Lansarote adasında (İspaniyanın Las-Palmas əyaləti) sualtı muzey yaradır. O, Baham adalarında, Meksikanın Kankun adasında və Antil adalarında da oxşar muzeylərin müəllifidir.

Britaniyalı Lansarote üçün kolleksiyanın yaradılmasına 2 il vaxt sərf edib. Onun yaratdığı 300 heykəltəraşlıq əsəri qəhrəmanları ada sakinləri olan hadisələrə həsr edilib. Bütün heykəllər əsrlərə davam gətirməyə hesablanan, amma ətraf mühit üçün ziyanlı olmayan çox möhkəm sementdən hazırlanıb. 300 heykəldən 35-i artıq suyun dibində yerləşdirilib.

Təqribən 400 kvadratmetr ərazini əhatə edəcək muzey 12 metrdən 15 metrədək dərinlikdə yerləşəcək. Odur ki, muzeyə təkcə dalğıclar deyil, qurudakı turistlər də tamaşa edə biləcəklər.

Ada hökuməti muzeyin yaradılmasına 800 min avro vəsait ayırıb.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

## General Səməd bəy Mehmandarov - 160

# "General Lənkəranda mövcud quruluşun ictimai-siyasi hadisələrinə qarışmazdı"

***Görkəmli Azərbaycan sərkərdəsi, tam artilleriya generalı Səməd bəy Mehmandarovun doğulub boya-başa çatdığı Lənkəran şəhərindəyəm. Siyasi təlatümlərin cərəyan etdiyi bir dövrdə yaşamış, döyüş yolu keçmiş böyük şəxsiyyət dünyaya göz açdığı doğma Lənkəranı çox sevib, elinin, obasının füsunkar təbiətinə vurğun olub. Ona görə də sonrakı illərdə imkan düşən kimi Lənkərana gələr, ata ocağını ziyarət edərdi. Bizi o illərdən uzun zaman kəsiyi ayırsa da, yerli camaatın hərbçi ilə bağlı xatirələri nəsildən-nəslə keçib. Qədirbilən xalqımız qəhrəman oğullarının adlarını beləcə yaddaşlarda yaşadıb, əbədiləşdirib.***

### Ailə həyatından bəzi məqamlar

Səməd bəyin qardaşları - İbrahim Mehmandarov Peterburq Tibb Cərrahlıq Akademiyasını, İsaq Mehmandarov Peterburq Yol Mühəndisliyi İnstitutunu bitirib. Səməd bəy 1903-cü ildə Jitomir şəhərindən olan zadəgan əsilli Yelizaveta Nikolayevna ilə ailə həyatı qurub. Yelizaveta rus-yapon və Birinci Dünya müharibəsi cəbhələrində şəfqət bacısı işləyib. 1908-ci ildə onların bir oğul övladı dünyaya göz açanda Səməd bəyin atası Sadıq bəy nəvəsinin adını Pir qoyub. Pir Leninqradda ali təhsil alaraq mühəndis ixtisasına yiyələnib. O, XI Qızıl Ordunun generalı Y.Kulaginin qızı İza İvanovna ilə evlənib. Qeyd edim ki, Y.Kulagin Böyük Vətən müharibəsi illərində 35-ci qvardiya atıcı diviziyasının komandiri olub.



### Xatirələrdə yaşayan general

Lənkəran şəhər İcra Hakimiyyətindən bildirdilər ki, dövlət başçımızın görkəmli hərbi şəxsiyyətin anadan olmasının 160 illiyi ilə bağlı sərəncamına əsasən, elm və təhsil ocaqlarında, mədəniyyət mərkəzlərində tədbirlər təşkil edilib, Lənkəran Dövlət Universitetində geniş elmi konfrans keçirilib. Lənkəranlılar generalın xatirəsini hər zaman əziz tuturlar. Bu gün Lənkəranda onun adını daşıyan küçə var. Lənkəran tarix-diyarşünaslıq muzeyində S.Mehmandarovun ömür yolunu əks etdirən guşə yaradılıb, sərkərdənin bəzi şəxsi əşyaları burada qorunub saxlanılır.

Zamanında adı dünyanı dolaşan, döyüş meydanlarından qələbə ilə qayıdan, bununla da Vətəninə şan-şöhrət qazandıran generalla bağlı xatirələri qələmə almaq üçün Lənkəran şəhər Ağsaqqallar Şurasının sədri, 94 yaşlı Kamal Kələntərli ilə görüşməyi qərara alıram. O, yaddaşını çözələyir, generalın və onun müasirlərinin dilindən eşitdiklərini aramla danışır: "Onu şəxsən görən və tanıyan insanların dediyinə görə, general heç vaxt Lənkəranda mövcud quruluşun ictimai-siyasi hadisələrinə qarışmazdı. Səməd bəyi tez-tez Böyük bazarda, Qalada, dəniz kənarında sadə adamlarla, uşaqlarla söhbət etdiyini görərmişlər. Bir gün Lənkərançayın sahilində bir dəstə uşaq generalın diqqətini cəlb edir və onlara yaxınlaşıb uşaqlardan böyüyəndə hansı sənəti seçəcəklərini soruşur. Hər kəs öz arzusundan danışır. Bu zaman qaragöz, çəlimsiz bir uşaq: - Zabit olacağam, - deyir. Oğlanın inam və qətiyyətlə dediyi sözlər Səməd bəyə xoş gəlir və əlini uşağın çiyninə qoyub deyir ki, zabit olmaq istəyən gərək atı yəhərsiz çapsın. Uşaq susub heç bir söz demir. Yaxınlıqda otlayan kəhərə yaxınlaşır və göz qırpımında belinə sıçrayır. Dördnala çapan at az sonra generalın yaxınlığında dayanır. Oğlan atdan düşüb soruşur ki, hə, necədir? General onu tərifləyərək deyir ki, əla çapırsan, səndən gələcəkdə yaxşı zabit olacaq. Həqiqətən də, Səməd bəy zənnində yanılmamışdı. Həmin o qaragöz, çəlimsiz oğlan sonralar cəsur sərkərdə kimi tanınan tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov imiş.

### Generalın hədiyyəsi

Lənkəranda çıxan "Aşkarlıq" qəzetinin təsisçisi və baş redaktoru yazıçı-jurnalist Etibar Əhədov da generalla bağlı maraqlı məlumatlara malikdir. E.Əhədovla söhbətimizi Səməd bəyin vaxtilə dincəldiyi məkanda - Naçalnik bağında aparırıq. Məlumat üçün bildirim ki, bu bağ çar dövründə salınıb və zəngin yaşıllığı ilə tanınan, son illərə kimi 200 yaşlı nadir dəmir, palıd ağacları ilə insanları valeh edən istirahət parkı olub. Hazırda həmin ağacların yerində müasir üslubda yaşıllıq salınıb. 1995-ci ildən bu park Azərbaycanın Milli Qəhrəmanı Əsgər Əliyevin adını daşıyır.

Etibar müəllim hələ Sovet dönəmində S.Mehmandarovun müasirləri ilə görüşüb xatirələrini qələmə almasından danışdı: "Neçə illərin söhbətidir, Lənkəran tarix-diyarşünaslıq muzeyinə getmişdik. General S.Mehmandarova həsr edilmiş guşədə rəngbərəng naxışlarla haşiyələnmiş və üstündə "S.M" sözləri həkk edilmiş bir boşqab diqqətimi cəlb etdi. Muzeyin keçmiş direktoru, respublikanın əməkdar mədəniyyət işçisi Hüriyyət Ağayeva bizə bildirmişdi ki, boşqab general S.Mehmandarovun el ağsaqqalı Mirtağı Miriyevə hədiyyəsidir. Həmçinin, Hüriyyət xanım məsləhət gördü ki, İbrahimxəlil Mahmudovla görüşək. 96 yaşlı bu el ağsaqqalının generalla bağlı maraqlı xatirələri var".

Etibar müəllim illərin o üzündə qalan bir görüşün tarixçəsini bizə nəql edir: "Şair təbiətli İbrahimxəlil Mahmudov məqsədimizi biləndə, sifətinə xoş bir təbəssüm qondu. Azacıq firkə gedib sanki həmin günlərə qayıtdı. Söylədi ki, Səməd bəygilin malikanəsi Qarabağlılar məhəlləsində evimizdən bir az aralıda - indiki 5 saylı məktəbin yaxınlığında yerləşirdi. Cümhuriyyət dövrü idi. Şəhərə hay düşdü ki, general Səməd bəy gəlir. Böyük bazar məscidinə qaçdıq. İnsan əlindən tərpənməyə yer yox idi. Səməd bəy burada çıxış etdi. O, çıxışında adamları sakitliyə çağırır, hərc-mərcliyin axırı yoxdur, - deyirdi. Qohumlarından kimsə Səməd bəyin gəlişi ilə əlaqədar qara bir qoçu qurbanlıq kəsmək istədi. General razılıq vermədi. Dedi ki, müharibələrdə çox qan görmüşəm, istəmirəm ki, yenidən qan tökülsün.

Generalın hədiyyəsindən - boşqabdan söz düşəndə İbrahimxəlil kişi gülümsünüb dedi ki, onu muzeyə taksi sürücüsü Yaqub Miriyev bağışlayıb".

E.Əhədov bizə ağsaqqalla söhbətindən sonra Miriyevlər ailəsində olduğunu, mərhum Y.Miriyevin bacısı, şəhər 2 saylı tam orta məktəbin müəllimi Səmayə Miriyeva ilə görüşdüyünü söylədi. Səmayə xanım generalın hədiyyəsi ilə bağlı xatirələri danışaraq qeyd edib ki, atası Mirtağı Mehmandarovların ailəsi ilə yaxın olub. Səməd bəyin bacısı Mapi xanım qonşuluqda ikimərtəbəli aynabəndli evdə yaşayıb. Bir gün Səməd bəy bacısına baş çəkməyə gəlib. Atasını da qonaq çağırıblar. General S.Mehmandarov muzeydə gördüyümüz həmin boşqabı onun atasına hədiyyə edib.

Xalqımızın sərkərdə oğlunun Lənkərandan başlanan ömür yolu gələcək nəsillər üçün layiqli örnəkdir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## Publisistik düşüncələr

# Nə yaxşı belədi!..

***Poeziyanın duyğulara təsirini, müəyyən ovqata kökləmə xüsusiyyətini, elə bunun nəticəsi kimi məfkurəyə ruhi-xəlqi, milli yaxınlığını kim təkzib edə bilər? Xalq şairi Səməd Vurğunun "Azərbaycan" şeiri azərbaycançılıq ideologiyasının poetik ifadəsi deyilmi? Şəhriyarın "Azərbaycan" şeiri də, Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması da eləcə...***

Şeirin tarixi bəlli deyil; bayatılar da şeirdi, laylalar, oxşamalar da. Xalqın formalaşmasında şeirin (poeziyanın) də öz yeri olub. Tarixin müxtəlif dönəmlərində şeir gizlin-aşkar ideologiyaya çevrilib. Bu ideologiyanın mahiyyəti milli, xəlqi ruhun harayı, çağırışı olub və səfərbəredici mahiyyəti ilə tarixin axarına müəyyən təsir göstərib.

Şeirin duyğulara (deməli, dünyagörüşə) təsiri millətin imzasının imzalar içində görünməsini (M.Hadi) təmin edib...

Həmişə belə olub, belə də olacaq...

Əsl vətəndaşlıq Vətənin gələcəyi olmaq istəyidi. Vətənə hansı məqamda, necə gərək ola biləcəyini düşünənlərdi, bunun üçün varlığını belə dəyişməyə hazır olanlardı Vətən oğlu. "Vətən mənə nə verdi?" yox, "Mən Vətənə nə verdim?" - deyənlərdi. Bu tezislər poeziyada daha əzəmətlə səslənir, duyğuları daha ülvi (bəlkə də ilahi) məqama kökləyir. Bəşəri istəyin, bəşəriliyin ifadəsi olan şeir könülləri ruhumuzun beşiyi olan Vətənə daha həssaslıqla, daha dərin məqamlarda kökləyir. Xalq şairi Məmməd Arazın "Vətən mənə oğul desə..." şeiri kimi:

***Vətən mənə oğul desə, nə dərdim,***
***Mamır olub qayasında bitərdim...***

Beytin mahiyyəti (məzmunu) əsl vətəndaş olma şərtinin poetik düsturudu, şübhəsiz. Bu beyt oxucuya (oxuyana), eşidənə nə (nələr) deyir? - kürlük eləyən düşüncələrimlə baş-başayam.

Mamır nədi? - qayaların, dağın-daşın sinəsində göyərən (bitən) bitki. Qayanın (dağın-daşın) sinəsini gün döyəndə onu arzuolunmaz hərarətdən mamır qoruyur. Yağan yağışlar mamırı döyəcləyir, qayanın, dağın-daşın sinəsi sızıldayır. Qaya (dağ-daş) Vətənin bir parçasıdı. Cazibəsinə düşdüyüm beyt Vətənə gərəkliyin ifadəsidi, bu beyti yaşam fəlsəfəsi bilənlər bulaq da olmaq istərdi, ağac da, çay da, külək də. Təki bulaqlığı, ağaclığı, küləkliyi, çaylığı Vətənə gərək olsun. Ən azından mamır olmağı arzulayır. Vətən sevgisinin gücünə, qüdrətinə bax! Ürəyin böyüklüyünün, varlığının (mövcudluğunun) bu istəyə həsr eləmə məqamından barınır əsl vətəndaşlıq. Məmməd Arazın "Vətən mənə oğul desə..." şeiri bu amalın ifadəsidi. Vətənə gərəklik kontekstində yazılan, elə bu kontekstdə də anlanılan, qəbul edilən, şeh olub düşüncələrə çökən söz beyt biçimli məfkurədi. Bu məfkurə duyanlar üçün poetik göyqurşağıdı (inanclara görə, göyqurşağının altından keçənlər istəklərinə çatır). Bu poetik göyqurşağının altından keçmək ifadəsi şərtidi, yəni bu misraların işığı ömür deyilən zaman kəsimini nurlandırmağa qadirdirsə, sökülən dan yeri səni bu misraların eşqinə salamlayırsa, uğurunun xeyir-duası olursa, bu göyqurşağının "altından keçənlərin" sırasındasan...

Əsl vətəndaş söz birləşməsi məzmun (mahiyyət) etibarilə heysiyyət, sevgi, məsuliyyət və duyum məfhumlarının vəhdətinin ifadə formasıdır, qeyd-şərtsiz dövlətçiliyə söykənir və bu tezisdən kənarda mövcudluğunu (həqiqiliyini) itirir.

Sən əsgərsən. Sənin Vətənə gərəkliyin əsgər olmağındı. Vətən sənə güvənir, əsgər. Sən Vətənə gərəksən. Vətən sənə oğul deyir! Vətən səninlə sən Vətəni sevdiyin həddə qürur duyur!

Nəhayətsizdi bu qürur. Məmməd Arazın poetik idrakı da bu qürurdan barınmışdı. Şeir sevənlərin, mətləb anlayanların duyumu "Vətən mənə oğul desə, nə dərdim" şeirinin bunca sevilməsi, yaddaşlara köçürülməsi təbiidir. Nə yaxşı belədir!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

## Əsgərə məktub

# Adınızı qəhrəmanlıq tariximizə böyük hərflərlə yazın



Əziz əsgərlər, həmişə sizə ən xoş arzularımızı, ən ülvi istəklərimizi ünvanlayırıq. Siz buna layiqsiniz. Çünkü Vətəni qoruyursunuz, torpaqlarımıza keşik çəkirsiniz, yurdumuzu müdafiə edirsiniz. Bu çox müqəddəs və şərəfli bir vəzifədir. Bilirəm ki, sizlər bu şərəfli vəzifəni daşımaqdan qürur duyursunuz.

Yaşadığımız acılı-şirinli ömür yollarında yaddaqalan günlərimiz çox olur. Dünyaya göz açdığımız, birinci sinfə kövrək addımlar atdığımız, "son zəng"i eşitdiyimiz, ali məktəbə qəbul olunduğumuz, tələbə bileti aldığımız və s. xoş günləri unutmaqmı olar? Təbii ki, yox! Belə gözəl günləri, xoş anları hamımız yaşamışıq, yaşayırıq, yaşayacağıq da...

Əziz əsgərlər, unudulmaz günlərdən biri də ordu sıralarına çağırıldığınız, Vətənə əsgər olduğunuz gündür. Bu şərəfli yol atalarımızın, babalarımızın yoludur. Bu müqəddəs yolu hamı keçməyə çalışır. Xidmətə yola düşdüyünüz, əyninizə hərbi forma geyindiyiniz gün heç vaxt yaddaşınızdan silinmir. Axı, orduya çağırılmaq, ülvi duyğularla Vətənə əsgər olmaq xoşbəxt bir andır. "Oğul düşmən çəpəridir" - deyiblər. Yadellilər yurda basqın edəndə oğullar silahlanıb el-obasının müdafiəsinə qalxırlar. Elə sizin kimi, sinələrini torpağa, yurda sipər edirlər, Vətəni qoruyurlar.

Ordu həyat məktəbidir. Siz hərbi xidmətdə gündən-günə təkmilləşir, yetkinləşirsiniz. Həm həyata, həm də dünyaya baxışlarınız dəyişir. Burada sınaqlardan keçirsiniz, silahlardan atəş açmağı, hərbi texnikaları idarə etməyi öyrənirsiniz. Gündən-günə təcrübəniz və peşəkarlığınız artır. Özünüz də hiss edirsiniz ki, hərbi xidmət sizi Vətənin müdafiəsinə və gələcək həyata hazırlayır. Buna görə də ordu sıralarında xidmət etmək hər bir gənc üçün vacibdir.

Bu gün qarşımızda dayanan başlıca vəzifə işğalda olan torpaqlarımızı azad etməkdir. Bunun üçün siz döyüş hazırlığınızı daim artırmalısınız. Qələbəyə gedən yollar təlim-məşqlərdən keçir. Düşmənə qalib gəlmək üçün mütləq həm elmi, həm də fiziki cəhətdən ondan üstün olmalısınız. Bax, onda işğalçını asanlıqla məğlub edə bilərsiniz. Dahi Nizami Gəncəvi gözəl deyib:

*...Elmlə, hünərlə -*
*başqa cür heç kəs,*
*Heç kəsə üstünlük*
*eyləyə bilməz.*

Bu gün siz düşməni məğlub etmək üçün silaha sarılmısınız. "Zəif insanlar geriyə, güclülər isə irəli baxanlardır" kəlamını da unutmayın. Daim irəli baxın, çünki siz də güclü və qüdrətlisiniz.

Cəsur oğulların igidliyi, qəhrəmanlığı xalqımızın qəlbində həmişə yaşayır. Bu gün Mehdi Hüseynzadəni, Həzi Aslanovu, Ziya Bünyadovu, Qafur Məmmədovu, İsrafil Məmmədovu, Məlik Məhərrəmovu, Mübariz İbrahimovu, Vəzir Orucovu və başqa qəhrəmanlarımızı kim tanımır ki? Bu gün damarlarımızdan babalarımızın qəhrəmanlığı coşduran qanı axır. İnanıram ki, siz də qəhrəmanlıq ənənəsini əməllərinizdə yaşadıb torpaqlarımızın müdafiəsində erməni işğalçılarına qarşı cəsarətlə vuruşacaqsınız. Hünər və rəşadət göstərərək adınızı qəhrəmanlıq tariximizin səhifələrinə böyük hərflərlə yazacaqsınız.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

## Əsgərin tribunası

# Doğma Xəzərimizin müdafiəçisi olmaqdan qürurluyam



1992-ci il oktyabrın 23-də Lənkəran şəhərində anadan olmuşam. Orta məktəbi əla qiymətlərlə başa vurduqdan sonra yüksək göstəricilərlə Qafqaz Universitetinə daxil olaraq beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə təhsil almışam. Orta məktəb və tələbəlik illərində sinif və qrup nümayəndəsi seçilib, ictimai işlərdə fəal iştirak etmişəm. Şahmata, rəssamlığa ədəbi yaradıcılığa böyük həvəsim var. Asudə vaxtlarımda Azərbaycan klassik ədəbiyyatını oxuyub öyrənirəm. Dünya ədəbiyyatını da sevirəm. Hərbi xidmətimi başa vurduqdan sonra təhsilimi yenidən davam etdirəcəyəm.

Hərbi xidmətə başladığım ilk vaxtdan vəzifə borclarımı layiqincə yerinə yetirir, Vətənimə, torpağıma sadiq əsgər kimi, namusla, vicdanla xidmət edir, hərbi vərdişlərə dərindən yiyələnir, komandirlərimin tapşırıqlarını vaxtlı-vaxtında yerinə yetirirəm. Bu gün mən Silahlı Qüvvələrimizin Hərbi Dəniz Qüvvələrinin matrosu olmağımla qürur hissi keçirirəm. Əynimə dənizçi forması geyinib doğma Xəzərimizin müdafiəsində dayanmağımla fəxr edirəm.

Bizə canları, qanları hesabına azadlıq, müstəqillik bəxş edən şəhidlərimizin ruhu qarşısında daim baş əyirik. Günü-gündən inkişaf edən Azərbaycanımız uğrunda döyüşüb şəhidlik zirvəsinə ucalıblar. Biz onların yarımçıq qalan arzularını işimizlə, əməllərimizlə həyata keçirməyə çalışmalı və buna nail olmalıyıq.

Hərbi hissədə keçirilən 9 Noyabr Bayraq Günü, ümummilli liderimiz Heydər Əliyevin 12 dekabr anım günü, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, 1990-cı il 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan tədbirlər ictimai-siyasi hazırlığımızın və dünyagörüşümüzün artırılmasında böyük rol oynayır. 9 noyabr Bayraq gününə həsr olunan tədbirdə mən də çıxış etmişdim. Bu çıxışımı şəxsi heyət çox bəyəndi. "Diyar-diyar səmalarda Vətənimin nəfəsiylə dalğalanan, dəryaları aşaraq məğrur gəmilərdə yırğalanan şəhid qanlı, üçrəngli bayrağım mənim", - deyə səsləndirdiyim fikirləri hər kəs yüksək alqışladı. Biz bu günün əsgərləri, sabahın isə vətəndaşlarıyıq. Həm də müstəqil Azərbaycanımızın daha da inkişafı naminə çalışacaq əsl vətəndaşlarıyıq.

**Matros**
**Kənan RZAZADƏ,**
**Hərbi Dəniz Qüvvələri**

## İdman

### Futzal üzrə Avropa çempionatında millimiz ilk oyununda İtaliya ilə qarşılaşıb



Azərbaycan milli komandası futzal üzrə Avropa çempionatının final mərhələsində ilk oyununda İtaliya yığması ilə qarşılaşıb.

Serbiyanın paytaxtındakı "Belqrad Arena"da keçirilən maçda millimiz 3:0 hesabı ilə məğlub olub. Oyunda iki dəfə Aleks Merlim, bir dəfə isə Daniel Giasson fərqlənib. Maçı Marc Birkett (İngiltərə), Oleq İvanov (Ukrayna) və Kamil Çetindən (Türkiyə) ibarət hakimlər briqadası idarə edib.

### "Lokomotiv" voleybol komandası "Telekom"a qalib gəlib



Fevralın 3-də qadın voleybol komandaları arasında Azərbaycan Super Liqası yarışlarının XI turu çərçivəsində bir oyun keçirilib.

Azərbaycan Voleybol Mərkəzində "Lokomotiv" komandası "Telekom" klubu ilə qarşılaşıb. Görüş Çempionlar Liqası yarışlarında mübarizə aparan təmsilçimiz "Lokomotiv" komandasının 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Hesabında 27 xal olan "Azərreyl" turnir cədvəlinin birinci pilləsinə yer alıb. "Telekom" komandası 26 xalla ikinci, "Lokomotiv" isə 25 xalla üçüncü pillədə qərarlaşıb.

### Şahmatçılarımız İranda keçirilən beynəlxalq turnirdə uğurla çıxış edirlər



İranın Məşhəd şəhərində "Firdovsi Open" beynəlxalq şahmat turnirində 6-cı turun oyunları keçirilib. Altıncı turda təmsilçilərimiz yerli şahmatçılar üzərində qələbə qazanıblar. Qədir Hüseynov Mohammademin Molaeini, Vüqar Rəsulov Kasra Qodarzı və Azər Mirzəyev isə Mahdi Binae Tavallaeini məğlub edib.

Altı turdan sonra Rusiya şahmatçıları Pavel Maletin, Maksim Çiqayev və Ukrayna təmsilçisi Aleksandr Zubarev hərəyə 5,5 xal toplayaraq turnirə liderlik edirlər. Həmyerlilərimiz Qədir Hüseynov və Vüqar Rəsulov liderlərdən yarım xal az toplayaraq 5 xalla altıncı və səkkizinci pillədə qərarlaşıblar. Azər Mirzəyev isə aktivinə 4 xal yazaraq 27-ci yerdədir.

### İkiqat dünya çempionumuz Hacı Əliyev beynəlxalq reytinq cədvəlindəki liderliyini davam etdirir



Dünya Güləş Birliyi (DGB) 2016-cı ilin yanvarında keçirilən yarışların nəticəsinə əsasən, sərbəst güləş üzrə yeni reytinq siyahısını açıqlayıb.

Sərbəst güləşçilərimizdən 11-i DGB-nin reytinq siyahısında yer alıb. Ən yaxşı göstərici ikiqat dünya çempionu Hacı Əliyevə (61 kq) məxsusdur. O, öz çəkisində reytinqin birincisidir. Dünya çempionatının gümüş medalını qazanan Cəmaləddin Məhəmmədov (125 kq) reytinqdə də ikinci sıradakı mövqeyini qoruyub. Komandanın kapitanı Xetaq Qazyumov (97 kq) isə öz çəkisinin reytinqində üçüncü pillədə qərarlaşıb.

Olimpiya çempionlarımız Toğrul Əsgərov (65 kq) və Şərif Şərifovun (97 kq) da mövqelərində dəyişiklik baş verməyib. Güləşçilərimiz müvafiq olaraq 4-cü və 6-cı yerdə qərarlaşıblar.

### Stolüstü tennis üzrə respublika "Top-8" turnirinin qalibləri müəyyənləşib



Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə milli komandanın üzvləri arasında keçirilən respublika "TOP-8" turniri başa çatıb.

"Şüa" İdman-Sağlamlıq Kompleksində təşkil olunan turnirin məqsədi ölkədə stolüstü tennisi təbliğ etmək, güclü idmançıları və onların reytinqini müəyyən etməkdən ibarət olub. Beynəlxalq Stolüstü Tennis Federasiyasının qaydaları üzrə keçirilən turnirdə qələbə uğrunda 16 idmançı mübarizə aparıb.

Kişi və qadın tennisçilərin görüşləri şəxsi xarakter daşıyıb. Yarışda stolüstü tennis üzrə qadınlardan və kişilərdən ibarət ən yaxşı səkkizlik müəyyənləşib. Turnirin yekununa görə, qadınların yarışında ilk üç yeri Miao Vanq, Çen Xintai və Məryəm İmanova, kişilərdə isə Yanq Hinyu, Vanq Çenxi və Xəyal Həşimli tutublar.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əhmədov Pərviz Məhəmmədəli oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 83
Nüsxə 4700